# Azərbaycanın tarix və mədəniyyət abidələri bu gün

Hər bir xalqın özünəməxsus mədəniyyəti var. Azərbaycan mədəniyyəti bütün mədəniyyətlərdən zənginliyinə,qədimliyinə görə fərqlənir. Ümumiyyətlə Azərbaycan mədəniyyəti hərtərəfli inkişaf etmiş unikal mədəniyyətlərdən biridir. Xalqımızın tarixi kimi onun mədəniyyəti də qədimdir; bunu Azərbaycan ərazisindəki qədim abidələri bir daha sübut edir. Dövrümüzə qədər gəlib çatmış dünya şöhrətli, əzəmətli tarixi Azıx mağarası, Qobustan qayaları, Şəki xanlarının sarayı, Şirvanşahlar sarayı,qədim Qəbələ qalası, Qız qalası və s. kimi abidələrimiz mədəniyyətimizin qədimliyini, zənginliyini, təkrarsızlığını təsdiqləyir.

Ulularımızdan bizə miras qalan, əsrlərin yadigarı olan tarix və mədəniyyət abidələrimizin qorunması bu gün əsas məsələlərdən biridir. Çünki tarixi abidələrimiz xalqımızın qədimliyini,ululuğunu göstərir. Buna görə də belə abidələrimizin qorunmasını, təhlükəsizliyini təmin etmək hər bir Azərbaycan vətəndaşının borcudur.

Bildiyimiz kimi, respublikamızın ərazisində 1990-ci illərdən baş vermiş müharibə hər sahəyə ciddi ziyan vurmuşdur. Bu müharibədə milli mədəniyyətimizin beşiyi olan Qarabağda və digər ərazilərdəki xalqımızın keçmişini, tarixini əks etdirən qədim abidələrimiz məhv edildi. Bunlardan qədim Azıx mağarası, XIII əsr Xəzinədağ məbədini, ümumiyyətlə 500-dək tarixi-memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, görkəmli rəssamlarımızdan Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov və başqalarının əsərləri nümayiş etdirilən 6 rəsm qalereyası ,85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı və s. işğal taleyi yaşadı. Tarix-memarlıq qoruğu elan edilmiş Şuşa şəhərindəki məscidlər dağıdılmış və yaxud Azərbaycan milli mədəniyyətinə mənsubluğu silinmişdir.Bundan başqa Şuşanın tarix muzeyi, Molla Pənah Vaqifin türbəsi, Ağdamda Pənah Xanın imarəti, Laçında Həmzə Sultan və Sultan Əhməd sarayları, qədim qəbirlər, kurqanlar tamamilə dağıdılmış, Alban məbədləri erməniləşdirilmişdir. Ağdam, Füzuli ərazilərindəki XVII-XVIII əsr memarlıq abidələri - karvansaralar xarabalığa çevrilmişdir. Qədim Azıx və Tağlar mağaraları, Üzəlliktəpə, Aluen, Qaraköşək abidələri hərbi məqsədlər üçün istifadəyə verilmişdir. Bundan başqa erməni faşistləri Kəlbəcər və Laçın Tarix-Diyarşünaslıq muzeylərinin fondlarını mənimsəmişlər. Onu da qeyd etmək lazımdır ki, hələ təkcə Kəlbəcər muzeyindən 30 min əşiya aparılmışdır.Bütün bunlar onu göstərir ki, ermənilər bu qədər tarixi abidələrimizi - milli sərvətlərimizi talan etməklə bərabər mənəviyyatımıza böyük zərbə vurmuşdular. Erməni vandalları işğal dövründə məscidlərimizi, ziyarətgahlarımızı, qəbirüstü abidələrimizi, tarixi-memarlıq abidələrini məhv etməklə, onların Azərbaycana məxsusluğunu itirməyə çalışıblar. Xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür saxtakarlığa əl atıblar. Məscidlərdə donuzlar saxlanılıb, abidələr qəsdən dagıdılıb. Qeyd edək ki, İkinci Qarabağ Müharibəsində Zəfər qələbəsindən sonra artıq ərazilərimizlə bərabər abidələrimizi də geri qaytardıq. Azərbaycan ərazisində olan bütün tarixi abidələr,o cümlədən azad olunmuş torpaqlarda bərpa və mühafizə işi gücləndirilib. Ümumiyyətlə Azərbaycan multikultural və tolerant ölkə olaraq tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası, mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Artıq 30 ilə yaxın erməni əsirliyində qalmış Qarabağdakı dini abidələrimiz üçün intibah mərhələsi başlayıb.

Xatırladaq ki, prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində vurğulamışdır ki, Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir: "Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi.

**(Ardı gələn sayımızda).**

# Aktuallığını itirməyən kəlamlar

Yazıçı-publisist Ramin Məmmədov həmişə axtarışda olan bir insandır. Bu araşdırmalarına əsasən o, rayonumuzun tarixinə, mədəniyyətinə, "Qəbələ" qəzetinə və onun əməkdaşlarına, rayon ziyalılarına, dövlət və hərb xadimlərinə əmək və zəhmət adamlarına kitablar həsr etmişdir. Ramin Məmmədov həm də uzun illərin axtarış və araşdırmaları əsasında Rusiyada - müxtəlif bölgələrdə yaşayan ziyalılarımızın, məşhurlarımızın və indiyədək də yaxşı tanımadığımız soydaşlarımızın, onların diaspor təşkilatlarının, ədəbiyyatının, mətbuatının tarixini və tam mənada özü haqqında yazıb-yaradan qələm sahibi kimi tanınmışdır.

İnsanın xarakteri və həyat tərzi çox zaman onun soykökünə əsaslanır. Məhz Ramin müəllim kimi onun atası Hüseyn Məmmədov rayonun qabaqcıl ziyalılarından biri olmuşdur. Ramin Məmmədov onun fəaliyyəti və həyatı haqqında 200-ə yaxın səhifəsi olan "Qəbələ təhsilinin unudulmaz müəllimi" adlı bir kitab yazmışdır. Kitab unudulmaz ziyalımızın 100 illiyinə həsr olunmuşdur. Kitab 2020-ci ildə nəsr olunmuşdur. Ancaq rayonumuzun fəxri ziyalılarını bu günkü gəncliyə tanıtmaq oxucu kütləsini bu kitab haqqında məlumatlandırmaq məqsədilə qəzetiimiz kitab haqqında bir material hazırlamağı məqsədəuyğun bildi.

Kitabda Hüseyn Məmmədovun Rayon Xalq Maarif şövbəsinin müdiri olduğu illərdə bir çox tədbirlərdə etdiyi çıxışlardan, xatirələrindən, həmçinin onun mənalı ömür yolundan, mətbuatla əlaqələrindən, xatirələrindən, həmçinin ona həsr edilmiş məqalələrdən, xatirə yazılarından bəhs edilmiş, Azərbaycan təhsil, məktəb tarixinə və maarif sahəsində iz qoymuş başqa pedaqoqlara kifayət qədər yer ayrılmışdır.

Kitaba nəzər saldıqda ayrı-ayrı bölümlər - o cümlədən "Qəbələnin qədim tarixinə səyahət", "Araşdırmalarımız göstərir ki", "Hüseyn Məmmədovun mətbuatla əlaqələri", "Onun unvanı müxtəlif nəşrlərdə və xatirələrdə", "Hüseyn Məmmədovun mətbuatla əlaqələri", "Hüseyn Məmmədovun xatirələri", "Vəsiyyətnamə" bölümlərindəki yazılar daha çox diqqəti cəlb edir. Onun çıxışlarından birində dediyi sözlər demək olar ki, onun məqsəd və əməli fəaliyyətini tam mənada əks etdirir.

"Tərbiyə işinin başlıca məqsədi, yüksək əxlaqi keyfiyyətlərə malik bilikli, materialist dünyagörüşlü , cəmiyyətdə əməli fəaliyyətlə ləyaqətli yer tutan insanlar yetişdirməkdir... Bu günkü yeniyetmələrin düzgün tərbiyəsi yalnız ailə ilə məktəbin sıx əlaqəsi şəraitində mümkündür".

**Bibixanın İSAYEVA.**

# İnternetə çıxışla təmin edilir

Telekommunikasiya sahəsi dünyada ən dinamik şəkildə inkişaf edən sahələrdəndir. Əhalinin internetə olan tələbatının qarşılanması və ən müasir texnologiyaların tətbiqi ilə müterəqqi cəmiyyətlərlə aramızda olan



"rəqəmsal uçurum"un aradan qaldırılması üçün ölkəmizdə son 20 ildə intensiv fəaliyyət göstərilib və müxtəlif irimiqyaslı layihələr icra olunub. Ölkənin ən ucqar yaşayış məntəqələrində də əhali və təşkilatlar üçün yüksəksürətli internetə çıxış, həmçinin istifadəni asanlaşdırmaq məqsədilə 2021-ci ildən etibarən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən "Onlayn Azərbaycan" layihəsinin tətbiqinə başlanılıb. Layihə müddətində mövcud ADSL avadanlığının müasir IMS platforması ilə işləyən GPON (Gigabit Passive Optical Network) avadanlıqla əvəz edilməsi, köhnəlmiş magistral kabel infrastrukturunun optik kabellərlə əvəzlənməsi və optik paylayıcı şəbəkənin qurulması həyata keçirilir. Layihə çərçivəsində 2024-cü ilin sonunadək ölkə ərazisində bütün ev təsərrüfatlarının sözügedən GPON və digər genişzolaqlı texnologiyalar vasitəsilə minimum sürəti 25 MB/s olan genişzolaqlı internetlə təmin edilməsi, yüksəksürətli internetdən istifadənin genişləndirilməsi və sabit genişzolaqlı internet abunəçilərinin faizinin artırılması planlaşdırılır. Azərbaycanın bütün ərazisində əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədinin tərkib hissəsi olan bu fəaliyyətlə insanlara genişzolaqlı internetə çıxış imkanı yaradılır. Bununla bağlı məlumat RİNN və "Aztelekom" tərəfindən kütləvi informasiya vasitələrində işıqlandırılır.




QƏBƏLƏ

qəzetinə

2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## İTMİŞDİR

Kəlbəcər rayon sakini **Alışanov Şakir Alışan oğluna** məxsus 32 BA 940 nömrəli NİVA maşınının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Vəndam qəsəbə sakini, 1992-ci il təvəllüdlü **Alızadə Əfqan Oruc oğluna** məxsus 13.04.2023-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Həmzəli kənd sakini **Rəsulzadə Toğrul Əziz oğluna** məxsus 01.07.2016-cı ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş № 0267495 nömrəli **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Mamaylı kənd sakini **Mikayılov Teymur Seyfulla oğluna** məxsus 04.07.2003-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1270*